Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2026-cı il
“ 21 ” may tarixli
158 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

# İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində zərər çəkmiş sığorta olunanın peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsinin müəyyən edilməsi

# Q A Y D A S I

## 1. Ümumi müddəalar

1.1 Bu Qayda “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında” Azərbaycan Respublikası Qanununun 19.2-ci maddəsinə əsasən hazırlanmışdır və istehsalatda bədbəxt hadisələr və ya peşə xəstəlikləri nəticəsində zərər çəkmiş sığorta olunanın (bundan sonra – sığorta olunan) peşə əmək qabiliyyətinin (bundan sonra - peşə əmək qabiliyyəti) itirilməsi dərəcəsinin müəyyən edilməsi qaydasını müəyyən edir.

1.2. Azərbaycan Respublikasında peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsinin müəyyən edilməsi ilə bağlı fəaliyyəti Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (bundan sonra – Nazirlik) tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi (bundan sonra – Agentlik) həyata keçirir.

1.3. Bu Qaydanın məqsədləri üçün istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.3.1. **barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan sığorta olunanlar** – Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin, Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin, Azərbaycan Respublikası Dövlət Mühafizə Xidmətinin, Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan mülki işçiləri;

1.3.2. **unikal kod** - barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan sığorta olunanlara Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş “Sığortalıların təqdim etdiyi məlumatlar əsasında sığorta olunanların və sığortalıların sığortaçıda uçotu Qaydası”nda nəzərdə tutulmuş qaydada verilən təkrarlanmayan nömrə.

1.4. Bu Qaydada istifadə olunan digər anlayışlar “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş mənaları ifadə edir.

## 2. Peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsinin müəyyən edilməsi üçün müraciət olunması qaydası

2.1. Peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsinin müəyyən edilməsi bu Qaydanın 2.3-cü bəndi nəzərə alınmaqla, sığortalı və (və ya) sığortaçının Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin (bundan sonra - MEİS) “Əmək və

məşğulluq” altsistemi (bundan sonra – altsistem), sığorta olunanın isə “e-sosial” internet portalında olan şəxsi kabineti vasitəsilə müraciəti və ya məhkəmə qərarı ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 yanvar tarixli 12 nömrəli Qərarı ilə təsdiq edilmiş “Əlilliyin qiymətləndirilməsi məqsədilə tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin verilməsi Qaydası”nın 1.5.4-cü yarımbəndinə uyğun olaraq verilmiş göndəriş əsasında Agentlik tərəfindən həyata keçirilir.

2.2. Agentlik MEİS-in “Əlillik” altsisteminə bu Qaydanın 2.1-ci bəndində nəzərdə tutulan göndərişin daxil olduğu tarixdən 10 (on) iş günü müddətində peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsinin müəyyən edilməsinə dair qiymətləndirmənin aparılacağı tarix və yer barədə altsistem üzərindən sığorta olunana, sığortalı və (və ya) sığortaçıya məlumat göndərir.

2.3. Barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan sığorta olunanların peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsinin müəyyən edilməsi onların unikal kodları göstərilməklə rəsmiləşdirilən və sığortalı tərəfindən kağız daşıyıcıda (elektron daşıyıcı əlavə edilməklə) Agentliyə təqdim olunan müvafiq təsdiqedici sənədlər əsasında həyata keçirilir.

2.4. Agentlik bu Qaydanın 2.3-cü bəndində nəzərdə tutulan sənədlərin təqdim olunduğu tarixdən 10 (on) iş günü müddətində peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsinin müəyyən edilməsinə dair qiymətləndirmənin aparılacağı tarix və yer barədə məlumatı kağız daşıyıcıda sığortalıya göndərir.

## 3. Peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsinin müəyyənləşdirilməsi

3.1. Peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsinin müəyyən edilməsinə dair qiymətləndirməni Agentliyin Tibbi-sosial ekspert komissiyası (bundan sonra – Komissiya) həyata keçirir. Komissiya peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsinin müəyyənləşdirilməsi zamanı “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 21-ci maddəsinə əsasən sığortalının və (və ya) sığortaçının səlahiyyətli nümayəndəsinin iştirakını təmin edir.

3.2. Sığortalı (bu Qaydanın 2.3-cü bəndində qeyd edilən sığortalılar istisna olmaqla) və (və ya) sığortaçı tərəfindən Komissiyada iştirak edəcək səlahiyyətli nümayəndə barədə məlumat altsistemə daxil edilir.

3.3. Bu Qaydanın 2.3-cü bəndində qeyd edilən sığortalı səlahiyyətli nümayəndəsi barədə məlumatı kağız daşıyıcıda Agentliyə təqdim edir.

3.4. Peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsi ilkin olaraq müəyyən edilən zaman xəstəlik və ya zədə, habelə zədə ilə əlaqədar çatışmazlığın (bundan sonra – xəstəlik, zədə və çatışmazlıq) səbəb əlaqəsini təsdiq edən sənədlər aşağıdakılardır:

3.4.1. sığorta olunanın Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 28 fevral tarixli 27 nömrəli Qərarı ilə təsdiq edilmiş “İstehsalatda baş verən bədbəxt hadisələrin təhqiqi və uçota alınması Qaydaları”na 1 nömrəli əlavə - “İZ forması” və ya məhkəmənin qərarı;

3.4.2. sağlamlığın peşə ilə əlaqədar pozulmasını təsdiq edən V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu tərəfindən verilən tibbi sənəd.

3.5. Barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan sığorta olunanlar istisna olmaqla, digər sığorta olunanlar barədə bu Qaydanın 3.4-cü bəndində nəzərdə tutulmuş sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda həmin sənədlər sığorta olunandan tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi sığorta olunanın razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya sığorta olunan tərəfindən təmin edilir.

3.6. Peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsinin müəyyənləşdirilməsi bu Qaydanın 3.4-cü bəndində qeyd olunan sənədlər nəzərə alınmaqla aşağıdakı ardıcıllıqla həyata keçirilir:

3.6.1. peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsinin müəyyən edilməsi məqsədilə qiymətləndirmə aparılan zaman orqanizmin funksiyalarının 30 faizə qədər pozulması halında bu Qaydaya 1 nömrəli əlavə – "Orqanizmin funksiyalarının pozulmasının faiz göstəricisi və müddəti", orqanizmin funksiyalarının 30 faizdən artıq pozulması halında isə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 13 may tarixli 187 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyin müəyyən olunması meyarları"na Əlavə - "Orqanizmin funksiyalarının pozulmasının faiz göstəricisi və müddəti" əsas götürülür;

3.6.2. sığorta hadisəsi nəticəsində qazanılmış xəstəlik, zədə və çatışmazlığa müvafiq xəstəliklərin beynəlxalq təsnifatı kodu (XBT-10 kod) və bundan irəli gələn orqanizmin funksiyalarının pozulması faizi bu Qaydanın 3.6.1-ci yarımbəndi nəzərə alınmaqla seçilir;

3.6.3. sığorta olunanın vəzifəsinin aid olduğu peşə qrup nömrəsi bu Qaydaya 2 nömrəli əlavə – "Peşələr (vəzifələr)"ə əsasən müəyyənləşdirilir;

3.6.4. peşələrin (vəzifələrin) ağırlıq dərəcəsi yalnız bu Qaydanın predmetinə görə çox yüngül, yüngül, orta, ağır və çox ağır olmaqla üçrəqəmli peşə qrup nömrələri ilə aşağıdakı qaydada qruplaşdırılır:

3.6.4.1. çox yüngül – 110, 111, 112, 120;

3.6.4.2. yüngül – 210, 211, 212, 213, 214, 220, 221, 230, 240, 250, 251, 290;

3.6.4.3. orta – 310, 311, 320, 321, 322, 330, 331, 332, 340, 341, 350, 351, 360, 370, 380, 390;

3.6.4.4. ağır – 420, 430, 460, 470, 480, 481, 482, 490, 491, 492, 493;

3.6.4.5. çox ağır – 560, 590;

3.6.5 qiymətləndirmə zamanı bu Qaydanın 2 nömrəli əlavəsində olmayan peşə (vəzifə) aşkarlandıqda bu Qaydanın 3.6.4-cü yarımbəndində qeyd olunmuş peşə qrupunun ümumiləşdirilməsinə əsasən yaxın peşə müəyyən edilir;

3.6.6. bu Qaydaya 3 nömrəli əlavə – "Əmək qabiliyyətini itirmə simvolu"nda qeyd olunmuş xəstəliklərin beynəlxalq təsnifatı kodu və peşə qrup nömrəsinin çarpaz kəsişməsindən xəstəlik, zədə və çatışmazlıqların müxtəlif peşə qruplarına daxil olan vəzifələr üzrə təzahür dərəcəsi olan əmək qabiliyyətini itirmə simvolu müəyyən edilir;

3.6.7. bu Qaydaya 4 nömrəli əlavə – "Orqanizmin funksiyalarının pozulması faizinin peşələr üzrə təzahür dərəcəsi" ilə orqanizmin funksiyalarının pozulması faizi və əmək qabiliyyətini itirmə simvoluna uyğun olaraq orqanizmin funksiyalarının pozulması faizinin peşələr üzrə təzahür dərəcəsi müəyyən edilir;

3.6.8. bu Qaydaya 5 nömrəli əlavə – "Peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsi (faizlə)" ilə orqanizmin funksiyalarının pozulması faizinin peşələr üzrə təzahür dərəcəsi və sığorta olunanın yaşına uyğun olaraq peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsi müəyyən edilir.

3.7. Peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsinin müəyyən edilməsinə əsas verən iki fərqli xəstəlik, zədə və çatışmazlıq olduqda qiymətləndirmə aşağıdakı düsturla aparılır:

$$\frac{(100-a) \times b}{100} + a$$

burada:

a - orqanizmin funksiyalarının pozulmasının yüksək faizi;

b - orqanizmin funksiyalarının pozulmasının aşağı faizi.

3.8. Komissiya peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsinin müəyyən edilməsinə dair qiymətləndirilmənin aparıldığı gün, əlavə araşdırma tələb olunduğu hallarda, həmin gündən sonra 5 (beş) iş günü müddətində qərar qəbul edir və həmin qərar (bu Qaydanın 3.9-cu bəndi nəzərə alınmaqla) protokolla rəsmiləşdirilir. Protokol Komissiyanın sədri və üzvləri tərəfindən gücləndirilmiş elektron imza ilə imzalanır.

3.9. Barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan sığorta olunanlara münasibətdə qərar kağız daşıyıcıda qəbul edilir və Komissiyanın sədri və üzvləri tərəfindən imzalanır.

3.10. Peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsi müddətli müəyyən olunduqda müddətin bitməsindən sonra xəstəlik, zədə və çatışmazlığın davam etməsi halında peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsi təkrar qiymətləndirilir.

3.11. Komissiyanın sığorta olunanın əlavə xərclərə (müalicəyə, əlavə qidalanmaya, dərman alınmasına, reabilitasiya vasitələrinə, başqasının qulluğuna, sanatoriya-kurort müalicəsinə, xüsusi nəqliyyat vasitəsinin verilməsinə və başqa peşə öyrədilməsinə) ehtiyacı olub-olmadığı müəyyənləşdirilməklə barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan sığorta olunanlar haqqında bu Qaydanın 8 nömrəli və ya səbəbi göstərilməklə 9 nömrəli əlavələri ilə müəyyən olunmuş formada kağız daşıyıcıda qəbul edilmiş qərarı MEİS-in “Əlillik” altsisteminə daxil edilmədən 3 (üç) iş günü ərzində sığortalıya təqdim edilir, digər sığorta olunanlar barədə bu Qaydanın 6 nömrəli və ya səbəbi göstərilməklə 7 nömrəli əlavələri ilə müəyyən olunmuş formada qəbul edilmiş qərarı isə 3 (üç) iş günü ərzində MEİS-in “Əlillik” altsisteminə daxil edilir.

3.12. Barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan sığorta olunanlar istisna olmaqla, digər sığorta olunanlar barədə bu Qaydanın 3.11-ci bəndində qeyd olunan qərarlar altsistem üzərindən sığortalı və (və ya) sığortaçıya ötürülür, sığorta olunanın “e-sosial” internet portalında olan şəxsi kabinetində əks olunur və ya MEİS-in “Sənəd dövriyyəsi” altsistemi vasitəsilə məhkəməyə göndərilir.

## 4. Peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsinin müəyyən edilməsi və müəyyən edilməsindən imtina edilməsi barədə qərardan şikayət verilməsi qaydası

Peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsinin müəyyən edilməsi və müəyyən edilməsindən imtina edilməsi barədə qərardan inzibati qaydada və (və ya) məhkəməyə şikayət verilə bilər.

______________________

## Akronimlər

**XBT-10** – xəstəliklərin və sağlamlıqla bağlı problemlərin beynəlxalq statistik təsnifatı, X baxış
**FS** – funksional sinif
**XÜÇ** – xroniki ürək çatışmazlığı
**ÜDS** – ürək damar sistemi
**XLÇ** – xroniki limfa çatışmazlığı
**İİÇV** – insan immunçatışmazlığı virusu
**BKİ** – bədən kütləsi indeksi
**XBX** – xroniki böyrək xəstəliyi
**XBÇ** – xroniki böyrək çatışmazlığı
**RA** – revmatoid artrit
**MMSE** – psixi sağlamlıq statusunun qısa qiymətləndirilmə şkalası.

“İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində zərər çəkmiş sığorta olunanın peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsinin müəyyən edilməsi Qaydası”na

**1 nömrəli əlavə**

**Orqanizmin funksiyalarının pozulmasının faiz göstəricisi və müddəti**

| **Sıra №-si** | **Xəstəliklərin, zədələrin və çatışmazlıqların adları, onların ağırlıq dərəcəsi, mərhələsi, orqanizmin funksiyalarının davamlı pozulmasının kliniki funksional xüsusiyyətləri** | **XBT-10 (kod)** | **Orqanizmin funksiyalarının pozulması faizi** | **Müddət** |
|---|---|---|---|---|
| **1** | **2** | **3** | **4** | **5** |
| | **1. Tənəffüs sistemi orqanlarının xəstəlikləri** | | | |
| 1.1. | Sadə və selikli-irinli xroniki bronxit | J41 | | |
| | Dəqiqləşdirilməmiş xroniki bronxit | J42 | | |
| | Emfizema | J43 | | |
| | Digər xroniki obstruktiv ağciyər xəstəliyi | J44 | | |
| | Bronxoektaziya xəstəliyi | J47 | | |
| | Xarici amillərin təsirindən yaranan ağciyər xəstəlikləri | J60-J70 | | |
| | Əsasən interstisial toxumanı zədələyən digər respirator xəstəliklər | J80-J84 | | |
| | Aşağı tənəffüs yollarının irinli və nекrotiк halları | J85-J86 | | |
| | Tənəffüs sistemi orqanlarının digər xəstəlikləri | J95-J99 | | |
| | Qiymətləndirmə | | | |
| 1.1.1. | yüngül forma, nadir kəskinləşmələrlə (ildə 2-3 dəfə), xroniki tənəffüs çatışmazlığı olmadan, kəskinləşmə zamanı bronxial obstruksiya ilə | | 10 | 1 il |
| 1.1.2. | orta ağır forma, dövri qısa kəskinləşmələrlə (ildə 4-6 dəfə), kəskinləşmə zamanı bronxial obstruksiya və ağciyər emfizeması ilə, 0-I dərəcəli tənəffüs çatışmazlığı ilə | | 20-30 | 1 il |
| 1.2. | Astma | J45 | | |
| | Qiymətləndirmə | | | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 1.2.1. | yüngül və orta ağır gedişli – nadir (ildə 2-3 dəfə) mövsümi kəskinləşmələr və (və ya) yüngül tutmalarla (nəzarət olunan, yüngül və ya orta ağır olan persistə edən bronxial astma), 0-I dərəcəli xroniki tənəffüs çatışmazlığı ilə | | 10-30 | 1il |
| 1.3. | Sarkoidoz | D86 | | |
| | Qiymətləndirmə | | | |
| 1.3.1. | tənəffüs orqanlarının funksiyasının əhəmiyyətsiz (0-I dərəcə) pozuntusu – ağciyər sarkoidozu və ya limfa düyünləri sarkoidozu ilə II dərəcə ağciyər sarkoidozu, fəal mərhələ, 0-I dərəcə tənəffüs çatışmazlığı ilə | | 10-30 | 1 il |
| 1.4. | Ağciyər əlamətləri ilə müşayiət olunan kistoz fibroz | E84.0 | | |
| | Qiymətləndirmə | | | |
| 1.4.1. | yüngül dərəcəli klinik təzahür, 0-I dərəcəli xroniki tənəffüs çatışmazlığı ilə | | 10-30 | 1 il |
| 1.5. | Tənəffüs orqanlarının bakterioloji və histoloji təsdiq edilmiş vərəmi | A15 | | |
| | Tənəffüs orqanlarının bakterioloji və ya histoloji təsdiq edilməmiş vərəmi | A16 | | |
| | Qiymətləndirmə | | | |
| 1.5.1. | 0-I dərəcə xroniki tənəffüs çatışmazlığı ilə spesifik prosesin sorulması və bərkiməsi mərhələsində tənəffüs orqanlarının vərəmi (sorulma, qalınlaşma, boşluğun çapıqlaşması) | | 10-30 | 1 il |
| 1.6. | Tənəffüs orqanlarının vərəminin və dəqiqləşdirilməmiş vərəmin qalıq fəsadları | B90.9 | | |
| | Qiymətləndirmə | | | |
| 1.6.1. | 0-I dərəcə xroniki tənəffüs çatışmazlığı ilə müşayiət olunan tənəffüs orqanlarının vərəminin və dəqiqləşdirilməmiş vərəmin gecikmiş fəsadları (fibroz, kalsinatlar, cərrahi müdaxilə nəticələri) | | 10-30 | 1 il |
| 1.7. | Digər orqanların vərəmi | A18 | | |
| | Miliar vərəm | A19 | | |
| | Qiymətləndirmə | | | |
| 1.7.1. | zədələnmiş orqan və sistemlərin funksiyalarının geriyədönməz yüngül dərəcəli pozuntusu ilə müşahidə olunan müxtəlif lokalizasiyalı vərəmin müalicədən sonrakı vəziyyəti | | 10-30 | 1 il |
| 1.8. | Tənəffüs orqanlarının vərəminin və dəqiqləşdirilməmiş vərəmin gecikmiş əlamətləri | B90.9 | | |
| | Qiymətləndirmə | | | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 1.8.1. | vərəmin müalicədən sonrakı gecikmiş əlamətləri, zədələnmiş orqan və sistemlərin funksiyasının geriyədönməz yüngül dərəcəli pozuntusu | | 10-30 | 1 il |
| | **2. Qan dövranı sisteminin xəstəlikləri** | | | |
| 2.1. | Qan təzyiqinin yüksək olması ilə səciyyələnən xəstəliklər | I10 - I15.0 | | |
| | Serebrovaskulyar xəstəliklər | I60-I69 | | |
| | Qiymətləndirmə | | | |
| 2.1.1. | arterial hipertenziya I-III dərəcə, hipertoniya xəstəliyi II mərhələ, hədəf orqanların funksiyalarının pozulması olmadan | | 10-30 | 1 il |
| 2.2. | Ürəyin işemik xəstəliyi | I20 - I25 | | |
| | Qiymətləndirmə | | | |
| 2.2.1. | ÜDS-nin kiçik (az əhəmiyyətli) disfunksiyası: stenokardiya və ya ağrısız işemiya FS I, II (75-100 Vatt); XÜÇ 0-I mərhələ | | 10-30 | 1 il |
| 2.3. | Ürəyin xroniki işemik xəstəliyi | I25 | | |
| | Qulaqçıq-mədəcik (atrioventrikulyar) blokadası və hiss dəstəyinin sol ayaqcığının blokadası | I44 | | |
| | Ürək çatışmazlığı | I50 | | |
| | Kardiomiopatiya | I42 | | |
| | Paroksizmal taxikardiya | I47 | | |
| | Qulaqcıqların (atrial) fibrilyasiyası və titrəməsi | I48 | | |
| | Ürək ritminin digər pozuntuları | I49 | | |
| | Başqa rubrikalarda (başlıqların altında) təsnif olunmamış qan dövranı sisteminin pozulmaları | I97 | | |
| | Sinə (döş qəfəsi) orqanlarının travmasının nəticələri | T91.4 | | |
| | Qiymətləndirmə | | | |
| 2.3.1. | ÜDS-nin kiçik (az əhəmiyyətli) disfunksiyası: XÜÇ I mərhələ | | 10-30 | 1 il |
| 2.4. | Arteriyalar, arteriolların və kapilyarların xəstəlikləri | I70-I79 | | |
| | Qiymətləndirmə | | | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 2.4.1. | I-IIA dərəcə işemiya klinik təzahürləri olmayan ətraf arteriyalarının seqmentar okklyuziyası və ya stenozu (65%-dən çox) olduqda<br>ABI - 0,75 və ya daha çox,cərrahi revaskülarizasiyadan sonra qan dövranının tam bərpası (kompensasiyası) ilə | | 10-30 | 1 il |
| 2.5. | Anevrizma və aortanın disseksiyası | I71 | | |
| | Anevrizmanın başqa formaları | I72 | | |
| | Arteriya və arteriolların digər zədələnmələri | I77 | | |
| | Kapilyarların xəstəlikləri | I78 | | |
| | Digər rubrikalarda təsnif olunmuş xəstəliklərdə arteriyaların, arteriolların və kapilyarların zədələnmələri | I79 | | |
| | Qiymətləndirmə | | | |
| 2.5.1. | damarın yerli az əhəmiyyətli (əhəmiyyətsiz) genişlənməsi (kiçik anevrizmalar) və ya stent greftlərinin implantasiyasından sonra qan dövranının tam kompensasiyası ilə orqanizmin funksiyalarının pozulmaması və ya pozulmaların az əhəmiyyətli (əhəmiyyətsiz) olması | | 10-30 | 1 il |
| 2.6. | Digər rubrikalarda təsnif olunmayan xroniki venoz çatışmazlığı ilə özünü göstərən venaların, limfa damarlarının və limfa düyünlərinin xəstəlikləri | I80-I89 | | |
| | Bədənin dəqiqləşdirilməmiş nahiyəsinin qan damarının (damarlarının) travması | T14.5 | | |
| | Qiymətləndirmə | | | |
| 2.6.1. | xroniki venoz xəstəliklərinin Beynəlxalq Təsnifatının (CEAP sistemi) 2-3-cü sinif klinik təzəhürlərinə uyğun gələn xroniki venoz xəstəlikləri | | 10-30 | 1 il |
| 2.7. | Digər rubrikalarda təsnif olunmayan limfa ödemi (limfedema) | I89.0 | | |
| | Filyariatoz | B74 | | |
| | Qiymətləndirmə | | | |
| 2.7.1. | orqanizmin funksiyalarının az əhəmiyyətli pozulmaları ilə ətrafların həcminin artması (3 sm-dən çox) və I dərəcəli XLÇ olan limfedema | | 10-30 | 1 il |
| 2.8. | Xroniki revmatik xəstəliklər | I05 - I09 | | |
| | Digər ürək xəstəlikləri | I30 - I52 | | |
| | Qiymətləndirmə | | | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 2.8.1. | ürək qapağının (və ya qapaqlarının), ağciyər arteriyası qapağının revmatik və qeyri-revmatik xəstəlikləri, iltihabi aktivlik əlamətləri olmadan miokardit, endokardit və perikardit, ÜDS-nin funksiyasının cüzi (az əhəmiyyətli) pozulması ilə: stenokardiya FS I-II (75-100 Vatt), ürək aritmiyasının 1-2 dərəcə (Laun-Volf təsnifatı üzrə), sol mədəciyin atım fraksiyasının azalması, XÜÇ I mərhələ | | 10-30 | 1 il |
| | **3. Həzm sistemi orqanlarının xəstəlikləri** | | | |
| 3.1. | Başın travmaları | S00-S09 | | |
| | Qiymətləndirmə | | | |
| 3.1.1. | həcmdən, artikulyasiyanın və çeynəmə aktının pozulmasından asılı olaraq toxumanın itirilməsinə, çapıqlaşma (dərəcəsi) fiksasiyasına və ya dilin parezinə görə həzm funksiyasının cüzi pozulması | | 10-30 | 1 il |
| 3.2. | Kardial hissənin axalaziyası | K22.0 | | |
| | Qiymətləndirmə | | | |
| 3.2.1. | həzm funksiyasının cüzi pozulması ilə – qida qəbulunun çətinləşməsi, I dərəcə (BKİ 17,5-18,5) qidalanma çatışmazlığı (zülal-enerji çatışmazlığı) halında nadir baş verən aspirasiyalarla | | 10-30 | 1 il |
| 3.3. | Mədə xorası | K25 | | |
| | Onikibarmaq bağırsağın xorası | K26 | | |
| | Qiymətləndirmə | | | |
| 3.3.1. | həzm funksiyasının cüzi pozulması – xəstəliyin yüngül forması, xroniki təkrarlanan, 2-3 ildən bir residivləşən xora, I dərəcə (BKİ 17,5-18,5) qidalanma çatışmazlığı ilə (zülal-enerji çatışmazlığı) | | 10-30 | 1 il |
| 3.4. | Qeyri-infeksion enterit və kolit | K50-K52 | | |
| | Qiymətləndirmə | | | |
| 3.4.1. | həzm funksiyasının cüzi pozulması – xəstəliklərin yüngül təzahürü, ishal (gündə 2-3 dəfə), I dərəcə (BKİ 17,5-18,5) qidalanma çatışmazlığı ilə (zülal-enerji çatışmazlığı) | | 10-30 | 1 il |
| 3.5. | Bağırsağın digər xəstəlikləri | K55-K64 | | |
| | Qiymətləndirmə | | | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 3.5.1. | həzm funksiyasının cüzi pozulması – yüngül təzahür, ishal (gündə 2-3 dəfə), I dərəcə (BKİ 17,5-18,5) qidalanma çatışmazlığı ilə (zülal-enerji çatışmazlığı) | | 10-30 | 1 il |
| 3.6. | Bağırsaq bitişmələri, keçməzliyi ilə | K56.5 | | |
| | Periton bitişmələri | K66.0 | | |
| | Qiymətləndirmə | | | |
| 3.6.1. | həzm funksiyasının cüzi pozulması – xəstəliklərin yüngül formaları, nadir (ildə 1-4 dəfə) hallarda müşahidə olunan mədə-bağırsaq diskomfortu əlamətləri ilə ağrı tutmalar, 2 saat müddətə qədər, bağırsaq möhtəviyyatının ötürülməsinin pozulması ilə (tutmalar ambulator-poliklinik şəraitdə aradan qaldırılır) | | 10-30 | 1 il |
| 3.7. | Xroniki virus hepatiti | B18 | | |
| | Dəqiqləşdirilməmiş virus hepatiti | B19 | | |
| | Qaraciyərin toksiki zədələnməsi | K71 | | |
| | Başqa rubrikalarda təsnif olunmayan xroniki hepatit | K73 | | |
| | Qiymətləndirmə | | | |
| 3.7.1. | aktivliyin və proqressivləşmənin cüzi əlamətləri və fibrozun F0-F1 mərhələsi ilə xroniki hepatit | | 10-30 | 1 il |
| 3.8. | Yırtıqlar | K40-K46 | | |
| | Qiymətləndirmə | | | |
| 3.8.1. | fəsadlaşmamış qarın yırtıqları – xarici və daxili, o cümlədən diafraqma yırtıqları, diafraqmanın qida borusu dəliyinin ezofagit olmadan qastroezofaqeal reflükslü yırtığı, həzm, tənəffüs və qan dövranı funksiyalarının yırtığın olduğu nahiyədə, eləcə də qarın boşluğunda və döş qəfəsində ağrı hissləri formasında təzahür edən mütəmadi əhəmiyyətsiz pozuntuları, dispeptik hallar | | 10-30 | 1 il |
| | **4. Sidik-cinsiyyət sisteminin xəstəlikləri** | | | |
| 4.1. | Xroniki nefritik sindrom | N03 | | |
| | Nefrotik sindrom | N04 | | |
| | Digər rubrikalarda təsnif olunan xəstəliklər zamanı yumaqcıq zədələnmələri | N08 | | |
| | Böyrəklərin tubulointerstisial xəstəlikləri | N10-N16 | | |
| | XBX | N18 | | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| | Dəqiqləşdirilməmiş böyrək çatışmazlığı | N19 | | |
| | Qiymətləndirmə | | | |
| 4.1.1. | XBX I mərhələ (XBÇ olmadan qanda kreatinin səviyyəsi 123 mkmol/l-dən az aralığında) | | 10-30 | 1 il |
| 4.2. | Böyrəkdaşı xəstəliyi | N20-N23 | | |
| | Qiymətləndirmə | | | |
| 4.2.1. | tez-tez kəskinləşmələr (ildə 2-3 dəfə), il ərzində sidik yollarının təkrarlanan infeksiyası | | 20-30 | 1 il |
| 4.3. | Böyrəyin qazanılma olmaması: | Z90.5 | | |
| 4.3.1. | normal funksiya ilə müşahidə edilən tək böyrək olduqda. XBÇ-nin təzahürü olmadan | | 30 | müddətsiz |
| 4.4. | İnterstisial sistit (xroniki) | N30.1 | | |
| | Digər xroniki sistit | N30.2 | | |
| | Qiymətləndirmə | | | |
| 4.4.1. | orta ağır gedişat, tez-tez (hər ay) kəskinləşmələrlə | | 30 | 1 il |
| 4.5. | Sidik kisəsinin başqa rubrikalarda təsnif olunmayan neyrogen zəifliyi | N31.2 | | |
| | Sidik kisəsi boynunun obturasiyası | N32.0 | | |
| | Uretranın strikturası | N35 | | |
| | Prostat vəzinin hiperplaziyası | N40 | | |
| | Sidik kanalının əməliyyatdan sonrakı strikturu | N99.1 | | |
| | Qiymətləndirmə | | | |
| 4.5.1. | sidik kisəsinin boşalmasının cüzi pozulması, qalıq sidiyin cüzi əmələ gəlməsi, sonradan davamlı damcılama | | 10-30 | 1 il |
| 4.6. | Qeyri-iradi sidiyə getmə | N39.3 | | |
| | Dəqiqləşdirilməmiş sidiksaxlamama | R32 | | |
| | Qiymətləndirmə | | | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 4.6.1. | ifrazetmə funksiyasının cüzi pozulması – sidiksaxlamamanın yüngül dərəcəsi (8 saat ərzində 400 ml), sistometriya zamanı sidik kisəsi həcmi 200-250 ml, qalıq sidik 50 ml-ə qədər | | 20-30 | 1 il |
| 4.7. | Sidik-cinsiyyət sisteminin implantatlarının olması | Z96.0 | | |
| | Qiymətləndirmə | | | |
| 4.7.1. | normal funksiyaya malik sidik kisəsi sfinktoru implantatının qoyulmasından sonra | | 20 | 2 il |
| 4.7.2. | yaxşı funksional imkanları olan nazik bağırsaq seqmentlərindən ibarət süni sidik kisəsinin qoyulmasından sonra, qalıq sidik qalmadan, sidiyə çıxmanın əhəmiyyətli pozuntuları olmadan | | 20-30 | 2 il |
| 4.8. | Sidik kanalı fistulası | N36.0 | | |
| | Qiymətləndirmə | | | |
| 4.8.1. | sidik kanalı fistulası – dəriyə çıxmaqla, sidiyin saxlanılması ilə dəri-sidik kanalı fistulası | | 10-30 | 1 il |
| 4.9. | Cinsiyyət orqanının qazanılmış olmaması | Z90.7 | | |
| | Qiymətləndirmə | | | |
| 4.9.1. | cinsiyyət orqanının başının hissəvi amputasiyası | | 10 | 1 il |
| 4.9.2. | cinsiyyət orqanının başının amputasiyası | | 20 | 1 il |
| 4.9.3. | cinsiyyət orqanının hissəvi amputasiyası | | 20 | 1 il |
| 4.9.4. | cinsiyyət orqanının amputasiyası | | 30 | 1 il |
| 4.10. | Qadın cinsiyyət orqanlarının sallanması | N81 | | |
| | Qiymətləndirmə | | | |
| 4.10.1. | sidikqaçırma olmadan və ya yüngül dərəcədə (8 saata 400 ml-ə qədər (stressli), sidiyə çağırışın zəif olması, sistometriya zamanı sidik kisəsi həcmi 200-250 ml, qalıq sidik - 50 ml-ə qədər | | 10-30 | 1 il |
| 4.11. | Sidik cinsiyyət orqanlarının vərəminin qalıq fəsadları | B90.1 | | |
| | Qiymətləndirmə | | | |
| 4.11.1. | vərəmin müalicədən sonrakı gecikmiş əlamətləri, zədələnmiş orqan və sistemlərin funksiyasının geriyədönməz yüngül dərəcəli pozuntusu | | 10-30 | 1 il |
| **5. Qan, qanyaradıcı orqanların xəstəlikləri və immun mexanizminin prosesə cəlb olunması ilə gedən ayrı-ayrı pozuntular** | | | | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 5.1. | Dalağın olmaması – qazanılmış | Z90.8 | | |
| | Qiymətləndirmə | | | |
| 5.1.1. | dalağın itirilməsi | | 10 | 1 il |
| 5.2. | Qidalanma ilə bağlı olan anemiyalar | D50-D53 | | |
| | Qazanılmış hemolitik anemiya | D59 | | |
| | Qazanılmış təmiz qırmızıhüceyrəli aplaziya | D60 | | |
| | Digər aplastik anemiyalar | D61 | | |
| | Kəskin posthemorragik anemiya | D62 | | |
| | Başqa rubrikalarda təsnif edilən xroniki xəstəliklər zamanı rast gəlinən anemiya | D63* | | |
| | Qiymətləndirmə | | | |
| 5.2.1. | sabit, müalicəyə zəif tabe olan pozulma ilə | | 10-30 | 1 il |
| 5.3. | Aqranulositoz | D70 | | |
| | Qiymətləndirmə | | | |
| 5.3.1. | qanəmələgəlmə funksiyasının cüzi pozulması ilə | | 10-30 | 1 il |
| 5.4. | Mielodisplastik sindromlar | D46 | | |
| | Qiymətləndirmə | | | |
| 5.4.1. | qanəmələgəlmə funksiyasının cüzi pozulması ilə | | 10-30 | 1 il |
| 5.5. | Purpura və digər hemorragik vəziyyətlər | D69 | | |
| | Qiymətləndirmə | | | |
| 5.5.1. | qanın laxtalanma funksiyasının mülayim pozulması – nadir baş verən qanaxmalarla (ildə 1 dəfədən çox olmayaraq) | | 20 | 1 il |
| 5.6. | Başlıca olaraq anticisimlərin çatışmazlığı ilə müşahidə olunan immunçatışmazlıqlar | D80 | | |
| | Kombinə olunmuş immunçatışmazlıqlar | D81 | | |
| | Digər mühüm dərəcəli çatışmazlıqlarla bağlı olan immunçatışmazlıqlar | D82 | | |
| | Adi dəyişkən immunçatışmazlıqlar | D83 | | |
| | Digər immunçatışmazlıqlar | D84 | | |
| | Qiymətləndirmə | | | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 5.6.1. | klinik simptomatika olmadan | | 10 | 1 il |
| 5.6.2. | müalicənin aparılmasına baxmayaraq, spesifik infeksiyadan başqa infeksiyaya meyillilik | | 20-30 | 1 il |
| 5.7. | İİÇV tərəfindən törədilən simptomsuz infeksion status | Z21 | | |
| | İnfeksion və parazitar xəstəliklərlə təzahür olunan İİÇV xəstəliyi | B20 | | |
| | Bədxassəli yenitörəmələrlə təzahür olunan İİÇV xəstəliyi | B21 | | |
| | Digər dəqiqləşdirilmiş xəstəliklərlə təzahür olunan İİÇV xəstəliyi | B22 | | |
| | Digər patoloji hallarla təzahür olunan İİÇV xəstəliyi | B23 | | |
| | İİÇV tərəfindən törədilən dəqiqləşdirilməmiş xəstəlik | B24 | | |
| | Qiymətləndirmə | | | |
| 5.7.1. | İİÇV-nin törətdiyi simptomsuz infeksion status, I- mərhələ (latent) | | 10 | 1 il |
| 5.8. | Seropozitiv RA | M05 | | |
| | Digər RA-lar | M06 | | |
| | Qiymətləndirmə | | | |
| 5.8.1. | oynaqların və daxili orqanların funksiyasının əhəmiyyətli pozuntusu olmadan RA, rentgenoloji – artritin I mərhələsi, uzunmüddətli remissiya mərhələsində, az inkişaf edən gedişat | | 10 | 1 il |
| 5.8.2. | RA, I dərəcəli az əhəmiyyətli oynaq funksiyaları pozuntusu, rentgenoloji – artritin I mərhələsi, uzunmüddətli remissiya mərhələsində, az inkişaf edən gedişat, I FS | | 20-30 | 1 il |
| **6. Sinir sistemi xəstəlikləri** | | | | |
| 6.1. | Kəllə-beyin travması və baş-beyin zədələnməsinin nəticələri: baş-beyin silkələnməsi, əzilməsi | S02-S09 | | |
| | Baş və boynun açıq yaraları | T01.0 | | |
| | Baş və boyun nahiyəsinin sınıqları | T02.0 | | |
| | Baş-beyin və kəllə sinirlərinin, onurğa beynin və boyun səviyyəsində digər sinirlər ilə müştərək travmaları | T06.0 | | |
| | Başın travmalarının nəticələri | T90 | | |
| | Vegetativ (avtonom) sinir sisteminin pozuntuları | G90 | | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| | Toksiki ensefalopatiya | G92 | | |
| | Qiymətləndirmə | | | |
| 6.1.1. | cüzi vegeto-damar pozuntuları ilə başın travmaları, kontuziyası, o cümlədən ayrı-ayrı paroksizmal vəziyyətlərlə (bayılma tutmaları, vegetativ-damar krizləri) | | 10-30 | 1 il |
| 6.2. | Sinir və sümük-əzələ sisteminə aid simptomlar və əlamətlər | R25-R29 | | |
| | Qiymətləndirmə | | | |
| 6.2.1. | başgicəllənmə, koordinasiyanın və tarazlığın, məqsədli motorikanın cüzi pozuntusu, o cümlədən yürüşün və statikanın pozuntuları | | 10-30 | 1 il |
| 6.3. | Başqa rubrikalarda təsnif olunmayan nitq pozuntuları | R47 | | |
| | Qiymətləndirmə | | | |
| 6.3.1. | Cüzi pozuntular (yüngül qalıq afaziya) | | 10-30 | 1 il |
| 6.4. | Əzələlərin ilkin zədələnməsi | G71 | | |
| | Yuxarı ətrafların mononevropatiyaları | G56 | | |
| | Aşağı ətrafların mononevropatiyaları | G57 | | |
| | Digər mononevropatiyalar | G58 | | |
| | Digər rubrikalarda təsnif olunmuş xəstəliklərdə mononevropatiyalar | G59* | | |
| | Qiymətləndirmə | | | |
| 6.4.1. | cüzi əzələ zəifliyi (əzələ gücünün 5 bala qədər azalması, əzələlərin hipotrafiyası 1,5-2,0 sm, yuxarı və aşağı ətraf oynaqlarında aktiv hərəkətlərin və biləyin – tutma və cisimlərin saxlanılması kimi əsas funksiyanın tam həcmdə saxlanılması ilə), statodinamik funksiyanın cüzi pozulması ilə | | 10-30 | 1 il |
| 6.5. | Parkinson xəstəliyi | G20 | | |
| | İkincili parkinsonizm | G21 | | |
| | Digər rubrikalarda təsnif olunmuş xəstəliklərdə parkinsonizm | G22* | | |
| | Qiymətləndirmə | | | |
| 6.5.1. | ümumən hərəkət prosesinin bir və ya ikitərəfli cüzi pozulması, tarazlığın pozulmaması ilə, cüzi hipodinamiya (Xen-Yar şkalası üzrə xəstəliyin I və II mərhələləri) | | 20-30 | 1 il |
| 6.6. | Bazal qanqlionların digər degenerativ xəstəlikləri | G23 | | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| | Distoniya | G24 | | |
| | Digər ekstrapiramid və hərəki pozuntular | G25 | | |
| | Digər rubrikalarda təsnif olunmuş xəstəliklərdə ekstrapiramid və digər hərəki pozuntular | G26* | | |
| | Qiymətləndirmə | | | |
| 6.6.1. | cüzi pozuntular | | 10-30 | 1 il |
| 6.7. | Yuxarı ətraf qurşağı və bazu səviyyəsində sinirlərin travması | S44 | | |
| | Sinirlərin said səviyyəsində travması | S54 | | |
| | Bilək və əl səviyyəsində sinirlərin travması | S64 | | |
| | Bazu kələfinin zədələnməsi | G54.0 | | |
| | Qiymətləndirmə | | | |
| 6.7.1. | qolun hərəkətinin nisbi məhdudlaşması, paresteziyalar | | 10-30 | 1 il |
| 6.8. | Bud-çanaq oynağı və bud səviyyəsində sinirlərin travması | S74 | | |
| | Baldır səviyyəsində sinirlərin travması | S84 | | |
| | Aşıq-baldır oynağı və ayaq səviyyəsində sinirlərin travması | S94 | | |
| | Bel-oma kələfinin zədələnməsi | G54.1 | | |
| | Qiymətləndirmə | | | |
| 6.8.1. | ayağın hərəkətinin nisbi məhdudlaşması, paresteziyalar | | 10-20 | 1 il |
| 6.9. | Mərkəzi sinir sistemi vəreminin qalıq fəsadları | B90.0 | | |
| | Qiymətləndirmə | | | |
| 6.9.1. | vərəmin müalicədən sonrakı gecikmiş əlamətləri, zədələnmiş orqan və sistemlərin funksiyasının geriyədönməz yüngül dərəcəli pozuntusu | | 10-30 | 1 il |
| | **7. Psixi və davranış pozuntuları** | | | |
| 7.1. | Aqorafobiya | F40.0 | | |
| | Sosial fobiyalar | F40.1 | | |
| | Panik pozuntu | F41.0 | | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| | Generalizə olunmuş təşviş pozuntusu | F41.1 | | |
| | Obsessiv-kompulsiv pozuntu | F42 | | |
| | Posttravmatik stres pozuntusu | F43.1 | | |
| | Dissosiativ (konversion) pozuntular | F44 | | |
| | Somatoform pozuntular | F45 | | |
| | Qiymətləndirmə | | | |
| 7.1.1. | orta dərəcədə ifadə olunmuş simptomlarla, təhsil, peşə və gündəlik fəaliyyətin çətinləşməsi | | 10-30 | 1 il |
| 7.2. | Damar demensiyası | F01 | | |
| | Başqa rubrikalarda təsnif edilən digər xəstəliklər zamanı demensiya | F02* | | |
| | Dəqiqləşdirilməmiş demensiya | F03 | | |
| | Qiymətləndirmə | | | |
| 7.2.1. | yüngül təzahür dərəcəsi (MMSE – 27-20 bal) | | 10-30 | 1 il |
| 7.3. | Baş-beyin zədələnməsi və disfunksiyası və ya somatik xəstəliklə bağlı digər psixi pozuntular | F06-F07 | | |
| | Spesifik şəxsiyyət pozuntuları | F60 | | |
| | Qiymətləndirmə | | | |
| 7.3.1. | orta təzahürlü simptomlar, peşə və gündəlik fəaliyyəti çətinləşdirən, həmçinin digər insanlarla münasibətinə mənfi təsir edən hal | | 10-30 | 1 il |
| 7.4. | Bipolyar affektiv pozuntu | F31 | | |
| | Qiymətləndirmə | | | |
| 7.4.1. | affektiv (depressiv, maniakal və ya qarışıq) epizodlar ildə bir dəfədən çox olmayaraq müşahidə olunan | | 10-30 | 1 il |
| 7.5. | Rekurrent depressiv pozuntu | F33 | | |
| | Qiymətləndirmə | | | |
| 7.5.1. | depressiv epizodlar ildə bir dəfədən çox olmayaraq müşahidə olunan | | 10-30 | 1 il |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| **8. Gözün və gözün əlavə aparatının xəstəlikləri** | | | | |
| 8.1. | Görmə itiliyi | H00-H59 | | |
| | Qiymətləndirmə | | | |
| 8.1.1. | görmə itiliyi (daha yaxşı görən gözlə korreksiya ilə) >0,3 | | 10-30 | 2 il |
| 8.1.2. | bir gözdə normal görmə sahəsi olduğu halda digər gözdə hərtərəfli daralma ≤20, lakin 10-dan geniş | | 10 | 1 il |
| 8.1.3. | bir gözdə normal görmə sahəsi olduğu halda digər gözdə konsentrik daralma ≤10 | | 20 | 1 il |
| 8.1.4. | konsentrik daralma, binokulyar norma və ya ≥40 | | 10 | 1 il |
| **9. Qulağın və məməyəbənzər çıxıntının xəstəlikləri** | | | | |
| 9.1. | Eşitmənin tam itirilməsi, qulaq və məməyəbənzər çıxıntının xəstəliklərindən və digər səbəblərdən (xəstəliklər, zədə və çatışmazlıqlar) (peşə ilə əlaqəli olanlar istisna olmaqla) irəli gələn eşitmənin azalması | H60-H95 | | |
| | Qiymətləndirmə | | | |
| 9.1.1. | eşitmə zəifliyi III-IV dərəcə, birtəfəli | | 10 | 1 il |
| 9.1.2. | eşitmə zəifliyi I-II dərəcə, ikitərəfli | | 20 | 1 il |
| 9.1.3. | eşitmə zəifliyi III dərəcə, ikitərəfli | | 30 | 1 il |
| **10. Endokrin sistemin xəstəlikləri, qidalanma və maddələr mübadiləsi pozuntuları** | | | | |
| 10.1. | Yod çatışmazlığı ilə bağlı qalxanabənzər vəz xəstəlikləri (endemik zob); yod çatışmazlığına görə subklinik hipotireoz | E01-E02 | | |
| | Qiymətləndirmə | | | |
| 10.1.1. | xəstəliyin klinik-funksional xarakteristikası müalicəyə yaxşı tabe olan və qeyri-davamlı cüzi pozulmalarla müşayiət olunan xoşxassəli gedişatla səciyyələnir | | 10 | 1 il |
| 10.1.2. | ürək və qan-damar sisteminin cüzi pozuntusu ilə (koronar pozuntu, ritm və keçiricilik pozuntusu, hidroperikard) | | 20 | 1 il |
| 10.1.3. | psixi funksiyaların (cüzi koqnitiv pozuntularla astenik və asteno-nevrotik sindrom) cüzi pozuntusu ilə | | 30 | 1 il |
| 10.2. | Hipotireozun digər formaları | E03 | | |
| | Qiymətləndirmə | | | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 10.2.1. | psixi statusun cüzi pozuntusu ilə | | 30 | 1 il |
| 10.3. | Tireotoksikoz (hipertireoz) | E05 | | |
| | Qiymətləndirmə | | | |
| 10.3.1. | qan dövranının (miokardiodistrofiya, cüzi ritm pozuntusu) cüzi pozuntularına, psixi funksiyaların yüngül pozuntularına və görmənin (endokrin oftalmopatiya I dərəcə) pozulmasına gətirib çıxaran fəsadlar | | 20-30 | 1 il |
| 10.4. | Hipoparatireoz | E20 | | |
| | Qiymətləndirmə | | | |
| 10.4.1. | nadir qıcolmalarla | | 20 | 1 il |
| 10.5. | Hiperparatireoz və qalxanabənzər ətraf vəzinin digər pozuntuları | E21 | | |
| | Qiymətləndirmə | | | |
| 10.5.1. | yüngül və ya orta osteoporoz, cüzi statodinamik pozuntularla | | 10-30 | 1 il |
| 10.6. | Hiperaldosteronizm | E26 | | |
| | Qiymətləndirmə | | | |
| 10.6.1. | birincili (Konn sindromu) və ikincili hiperaldosteronizm nadir orta hipertonik krizlərlə və ya yüngül krizlərlə müalicənin qeyri-effektivliyi (residiv) zamanı | | 20-30 | 1 il |
| 10.7. | Böyrəküstü vəzilərin digər pozuntuları | E27 | | |
| | Qiymətləndirmə | | | |
| 10.7.1. | cüzi tezliklə və dekompensasiya epizodlarının ağırlığı ilə | | 10-30 | 1 il |
| 10.7.2. | əzələ toxumasının cüzi patologiyası ilə | | 10-30 | 1 il |
| 10.7.3. | ikincili miopatiya fonunda cüzi asteniya ilə | | 10-30 | 1 il |
| | **11. Dəri və dərialtı toxumanın xəstəlikləri** | | | |
| 11.1. | Piodermiya | L08.0 | | |
| | Qiymətləndirmə | | | |
| 11.1.1. | xroniki, nadir residivləri ilə, irinli ifrazatlı xoralaşdırıcı düyünlərin əmələ gəlməsi ilə | | 30 | 1 il |
| 11.2. | Qazanılmış bullyoz epidermoliz | L12.3 | | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 11.2.1. | ümumi vəziyyəti nəzərə çarpmayan dərəcədə dəyişən və çapıq əmələ gəlməməsi ilə müşayiət olunan dəri və selikli qişanın zədələnməsi | | 20 | 1 il |
| 11.2.2. | ümumi vəziyyəti dəyişən və çapıq əmələ gəlməsilə müşayiət olunan dəri və selikli qişanın zədələnməsi | | 30 | 1 il |
| 11.3. | Atopik dermatit | L20 | | |
| | Qiymətləndirmə | | | |
| 11.3.1. | məhdud, ildə iki dəfəyə qədər kəskinləşən | | 10 | 1 il |
| 11.3.2. | yayılmış, ildə bir neçə dəfədən çox kəskinləşmələr | | 20-30 | 1 il |
| 11.4. | Allergik təmas dermatiti | L23 | | |
| | Qiymətləndirmə | | | |
| 11.4.1. | məhdud, ildə iki dəfədən çox baş verməyən | | 10 | 1 il |
| 11.4.2. | yayılmış, ildə bir neçə dəfədən çox kəskinləşmələr | | 20-30 | 1 il |
| 11.5. | Digər dermatitlər (ekzema) | L30 | | |
| | Qiymətləndirmə | | | |
| 11.5.1. | məhdud, ildə iki dəfədən çox baş verməyən | | 10 | 1 il |
| 11.5.2. | yayılmış, ildə bir neçə dəfədən çox kəskinləşmələr | | 20-30 | 1 il |
| 11.6. | Övrə | L50 | | |
| | Qiymətləndirmə | | | |
| 11.6.1. | ildə iki dəfə kəskinləşən, 4 aya qədər yüngül gedişli və tez solan | | 10 | 1 il |
| 11.6.2. | ildə iki dəfədən çox residivləşən orta gedişatlı | | 20-30 | 1 il |
| 11.7. | Çoxformalı eritema | L51 | | |
| | Qiymətləndirmə | | | |
| 11.7.1. | prosesin cüzi intensivliyi, ümumi vəziyyətə minimal təsirlə | | 10 | 1 il |
| 11.7.2. | prosesin təzahür edən intensivliyi, ümumi vəziyyətə təzahür edən təsirlə | | 20-30 | 1 il |
| 11.8. | Çəhrayı sızanaq | L71 | | |
| | Qiymətləndirmə | | | |
| 11.8.1. | məhdud zədələnmə, kiçik kosmetik çatışmazlıqlar | | 10 | 1 il |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 11.8.2. | yayılmış proses, mülayim kosmetik çatışmazlıqlar | | 20-30 | 1 il |
| 11.9. | Lokal sklerodermiya | L94.0 | | |
| | Qiymətləndirmə | | | |
| 11.9.1. | ocaqlı-xətti və lövhəli məhdud, səthi, dərinin funksional pozuntuları olmadan kosmetik çatışmazlıqlar | | 10 | 1 il |
| **12. Sümük-əzələ sisteminin və birləşdirici toxumanın xəstəlikləri** | | | | |
| 12.1. | Osteomielit | M86 | | |
| | Qiymətləndirmə | | | |
| 12.1.1. | prosesin cüzi aktivliyi, fistulun nadir və ya orta tezliklə irinləməsi, uzunsürən remissiyaların olması ilə | | 30 | 1 il |
| 12.2. | Boyunun, döş qəfəsinin, qarının, belin aşağı hissəsinin, onurğanın bel şöbəsinin və çanağın travmaları | S10- S39 | | |
| | Boyun və gövdə travmalarının nəticələri | T91 | | |
| | Qiymətləndirmə | | | |
| 12.2.1. | cüzi funksional pozuntularla və ya cüzi dərəcəli qeyri-stabillik | | 20 | 1 il |
| 12.3. | Onurğanın bel-omba şöbəsinin və çanaq sümüklərinin sınığı | S32 | | |
| | Qiymətləndirmə | | | |
| 12.3.1. | cüzi funksional pozuntularla (məsələn, stabil çanaq həlqəsi, qalça sümüyünün xaçvari oynaqlarının degenerativ dəyişiklikləri) | | 10 | 1 il |
| 12.3.2. | orta dərəcəli qeyri-sabit pozuntularla (məsələn, qeyri-sabit çanaq həlqəsi, o cümlədən ikincili artroz) | | 30 | 1 il |
| 12.4. | Yuxarı və aşağı ətrafın istənilən müştərək (istənilən səviyyələrdə) travmatik amputasiyası | T05.6 | | |
| | Yuxarı ətrafın əzilməsinin və travmatik amputasiyanın nəticələri | T92.6 | | |
| | Qol, bilək və əl nahiyəsinin toxumalarının nekrozlaşan donvurması | T34.4-T34.5 | | |
| | Bilək və əlin amputasiyası | S68 | | |
| | Artrozlar | M15-M19 | | |
| | Əl və ayaq barmaqlarının qazanılma deformasiyaları | M20 | | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| | Ətrafların digər qazanılma deformasiyaları | M21 | | |
| | Oynağın ankilozu | M24.6 | | |
| | Qiymətləndirmə | | | |
| 12.4.1. | funksional əlverişli vəziyyətdə bazu oynağının ankilozu ( əlin yüngül önə gətirilməsi və aparma bucağı 45° ilə) çiyin qurşağının hərəkətliliyi saxlanılmaqla | | 20 | müddətsiz |
| 12.4.2. | çiyin oynağının hərəkətinin məhdudlaşması, o cümlədən bazu qurşağının (əlin qalxması yalnız 120 dərəcəyə qədər) rotasiyasının məhdudlaşması ilə | | 10 | müddətsiz |
| 12.4.3. | əlin qaldırılması yalnız 90 dərəcəyə qədər rotasiyasının məhdudlaşması ilə | | 20 | müddətsiz |
| 12.4.4. | cüzi dərəcəli bazu oynağı qeyri-stabilliyi, eləcə də nadir çıxıqlar ( 1 ildən sonra və daha çox) | | 10 | müddətsiz |
| 12.4.5. | orta dərəcəli bazu oynağı qeyri-stabilliyi, eləcə də daha çox təkrarlanan çıxıqlar (ildə 2-3 dəfə) | | 20-30 | müddətsiz |
| 12.4.6. | körpücük sümüyünün psevdoartrozu | | 20 | müddətsiz |
| 12.4.7. | bazu oynağında sərbəst hərəkət olduğu halda ətrafın 4 sm-ə qədər qısalması | | 10 | müddətsiz |
| 12.4.8. | bazu sümüyünün psevdoartrozu: stabil | | 20 | müddətsiz |
| 12.4.9. | bisepsin uzun vətərinin hissəvi cırılması | | 10 | müddətsiz |
| 12.4.10. | dirsək oynağının ankilozu, o cümlədən qolun funksional əlverişli vəziyyətdə hərəkətinin olmaması | | 20 | müddətsiz |
| 12.4.11. | funksional əlverişli vəziyyətdə qolun orta pronasiyası ilə 80 və 100 dərəcə bucaq altında ankiloz | | 20-30 | müddətsiz |
| 12.4.12. | dirsək oynağının cüzi dərəcəli hərəkət məhdudiyyəti<br>(açılma/bükülmə 0-30-120° dək saidin sərbəst çevirmə hərəkətliliyi ilə) | | 10 | müddətsiz |
| 12.4.13. | saidin rotasiya hərəkətliliyinin məhdudlaşması ilə bükülmənin mülayim səviyyədə olması | | 20-30 | müddətsiz |
| 12.4.14. | funksional əlverişli vəziyyətdə saidin hərəkətliliyinin təcrid olmaması (orta pronasiya) | | 10 | müddətsiz |
| 12.4.15. | funksional əlverişsiz vəziyyətdə saidin hərəkətliliyinin təcrid olmaması | | 20 | müddətsiz |
| 12.4.16. | son supinasiya vəziyyətində saidin hərəkətliliyinin təcrid olmaması | | 30 | müddətsiz |
| 12.4.17. | dirsək və ya mil sümüyünün psevdoartrozu | | 10-20 | müddətsiz |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 12.4.18. | bilək oynağının funksional əlverişli vəziyyətdə ankilozu (yüngül dorsal açılma) | | 20 | müddətsiz |
| 12.4.19. | bilək oynağının hərəkətliliyinin məhdudlaşması, cüzi (açılma/bükülmə 30-40°dək) | | 10 | müddətsiz |
| 12.4.20. | bilək oynağının hərəkətinin mülayim məhdudlaşması | | 20-30 | müddətsiz |
| 12.4.21. | bilək oynağı sümüklərinin bir və ya bir neçə bilək sümüyünün sınıqlarının bitişməsi, I dərəcə funksional pozulmalarla | | 10-30 | müddətsiz |
| 12.4.22. | funksional əlverişli vəziyyətdə baş barmaq oynağının ankilozu | | 10 | müddətsiz |
| 12.4.23. | əlin baş barmaq və əldarağı sümüklərinin funksional əlverişli vəziyyətdə ankilozu | | 30 | müddətsiz |
| 12.4.24. | barmağın funksional əlverişli vəziyyətdə ankilozu istifadə etmək imkanı ilə | | 10 | müddətsiz |
| 12.4.25. | baş barmağın falanqasının olmaması | | 10 | müddətsiz |
| 12.4.26. | baş barmağın distal falanqasının tam və əsas falanqasının hissəvi olmaması | | 10 | müddətsiz |
| 12.4.27. | baş barmağın olmaması | | 20 | müddətsiz |
| 12.4.28. | baş barmağın metakarpal sümüklə birgə olmaması | | 30 | müddətsiz |
| 12.4.29. | bir barmağın (ikinci, orta, adsız və beşinci) və onlara aid əl sümüklərinin hissələrinin olmaması | | 10 | müddətsiz |
| 12.4.30. | digər kombinasiyada iki barmağın olmaması | | 20 | müddətsiz |
| 12.5. | Hər iki aşağı ətrafın istənilən səviyyədə travmatik amputasiyası | T05.3-T05.5 | | |
| | Bud-çanaq nahiyəsi və budun toxumalarının, diz və baldır nahiyəsinin, aşıq-baldır oynağı nahiyəsi və ayağın toxumaların nekrozlaşan donvurması | T34.6-T34.8 | | |
| | Aşağı ətrafın dəqiqləşdirilməmiş donvurması | T35.5 | | |
| | Aşağı ətrafın əzilməsinin və travmatik amputasiyanın nəticələri | T93.6 | | |
| | Aşıq-baldır oynağı və ayaq səviyyəsində travmatik amputasiya | S98 | | |
| | Koksartroz (bud-çanaq oynağının artrozu) | M16 | | |
| | Qonartroz (diz oynağının artrozu) | M17 | | |
| | Digər artrozlar | M19 | | |
| | Əl və ayaq barmaqlarının qazanılma deformasiyaları | M20 | | |
| | Ətrafların digər qazanılma deformasiyaları | M21 | | |
| | Oynağın ankilozu | M24.6 | | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| | Bud sümüyü başının yuvenil osteoxondrozu | M91.1 | | |
| | Qiymətləndirmə | | | |
| 12.5.1. | ayaq barmağının amputasiyası | | 10 | müddətsiz |
| 12.5.2. | pəncənin baş barmağının amputasiyası | | 10 | müddətsiz |
| 12.5.3. | ayaq baş barmağının amputasiyası, I daraq sümüyünün itirilməsi ilə | | 20 | müddətsiz |
| 12.5.4. | ayaq barmaqlarının II-V və ya I–III amputasiyası | | 10 | müddətsiz |
| 12.5.5. | bir ayaqda bütün barmaqların amputasiyası | | 20 | müddətsiz |
| 12.5.6. | iki ayaqda bütün barmaqların amputasiyası | | 30 | müddətsiz |
| 12.5.7. | bud-çanaq oynağının hərəkətinin cüzi məhdudlaşması: birtərəfli | | 10 | müddətsiz |
| 12.5.8. | bud-çanaq oynaqlarının hərəkətinin cüzi məhdudlaşması: ikitərəfli | | 20-30 | müddətsiz |
| 12.5.9. | bud-çanaq oynaqlarının hərəkətinin orta dərəcə məhdudlaşması: birtərəfli | | 30 | müddətsiz |
| 12.5.10. | ayağın 2,5-3,5 sm qısalması | | 10 | 1 il |
| 12.5.11. | diz oynağının qeyri-stabilliyi, yüngül pozuntular | | 10 | 1 il |
| 12.5.12. | diz oynağının qeyri-stabilliyi, mülayim pozuntular | | 30 | 1 il |
| 12.5.13. | diz oynağının hərəkətliliyinin pozulması cüzi dərəcə: birtərəfli | | 10 | 1 il |
| 12.5.14. | diz oynağının hərəkətliliyinin pozulması cüzi dərəcə: ikitərəfli | | 10-20 | 1 il |
| 12.5.15. | diz oynağının hərəkətliliyinin pozulması mülayim dərəcə: birtərəfli | | 20 | 1 il |
| 12.5.16. | diz oynağının hərəkətliliyinin pozulması mülayim dərəcə: ikitərəfli | | 30 | 1 il |
| 12.5.17. | diz oynaqlarının qığırdağının təzahür edən zədələnməsi (məsələn, diz qapağının xondromalyasiyası II–IV mərhələ): birtərəfli | | 30 | 1 il |
| 12.5.18. | qamış sümüyünün psevdoartrozu | | 20-30 | 1 il |
| 12.5.19. | incik sümüyünün psevdoartrozu | | 10 | 1 il |
| 12.5.20. | funksional əlverişli vəziyyətdə aşıq-baldır oynağının ankilozu (ayaqaltı bükmə 5 -15 dərəcə) | | 20 | 1 il |
| 12.5.21. | aşıq-baldır oynağının funksional əlverişsiz vəziyyətdə ankilozu | | 30 | müddətsiz |
| 12.5.22. | bir ətrafın barmaqlarının funksional əlverişli vəziyyətdə ankilozu | | 10 | müddətsiz |
| 12.5.23. | bir ətrafın barmaqlarının funksional əlverişsiz vəziyyətdə ankilozu | | 20 | müddətsiz |
